**Zənfirə Qəzənfər qızı Quliyeva**

**UOT:338.8; JEL: B10.**

# Səfəvi dövlətinin iqtisadi siyasəti: əsas xüsusiyyət və istiqamətləri

***Xülasə***

*Məqalədə Səfəvi dövlətinin iqtisadi siyasətinin əsas xüsusiyyət və istiqamətləri araşdırılmışdır. Araşdırmalar zamanı Səfəvi dövlətinin yaranması və idarəetmə sisteminin təşəkkülü prosesi, əsas inkişaf mərhələləri, idarəetmə sistemi, həyata keçirilən iqtisadi siyasət və mövcud iqtisadi reallıqlar arasında əlaqələr müəyyənləşdirilərək dəyərləndirmələr edilmişdir.*

***Açar sözlər:*** *səfəvi, qızılbaş, feodal, idarəetmə, iqtisadi idarəetmə*

## Giriş

Səfəvi dövlətinin tarixi Azərbaycan xalqının tarixi ilə bilavasitə bağlıdır. Azərbaycan xalqının etnik birıliyinin möhkəmlənməsi, cənubi və şimalı Azərbaycan torpaqlarının vahid, mərkəzləşdirilmiş Səfəvi dövləti sərhədləri hüdudlarında birləşdirilməsi, bu ərazilərin siyasi, iqtisadi, mədəni və etnik birliyinin daha sıx birləşməsinə imkan yaratdı. Təsadüfi deyildir ki, elmi ədəbiyyatlarda Səfəvi dövlətinin yaranması Azərbaycan və qonşu ölkələrdə feodal cəmiyyətinin təkamülü prosesinin mühüm mərhələsi kimi dəyərləndirirlər [12, s.4]. Səfəvi dövlətinin yaradılmasında aparıcı qüvvə Azərbaycan feodal əsilzadələri, nəsil və tayfa başçıları-əmirlər hesab olunur. Bu səbəbən də azərbaycanlı əsilzadələr dövlətin yarandığı ilk illərdə dövlətin əsas hegemon qüvvəsi kimi diqqəti cəlb edirdi. XVI əsrdə iri ticarət-sənaye mərkəzi Təbriz şəhərinin Səfəvi dövlətinin mərkəzi olması da təsadüfi deyildir. Təbriz şəhəri həmin dövrdə Səfəvi dövlətinin siyasi, iqtisadi mərkəzinə çevrilmişdi.

**Səfəvi dövlətinin yaranması və idarəetmə sisteminin təşəkkülü**

Səfəvi dövlətinin yaranması tarixi kimi 1501-ci il qeyd olunur. Həmin ildə I İsmayıl şah elan olundu. Təbriz məscidində xütbələr oxundu və dövriyyəyə şiə simvolları ilə yeni pullar buraxıldı. Qeyd etmək lazımdır ki, Səfəvi dövlətinin ilk olaraq nüvəsini şimali və cənubi Azərbaycan torpaqları təşkil edirdi. Daha sonra 1503-cü ildə şah İsmayıl cənuba, Ağqoyunlu Murada qarşı hərəkət edərək İran torpaqlarına daxil oldu. Belə bir tarixi fakt Səfəvi dövlətinin Azərbaycan dövləti kimi təqdim edilməsinə ciddi əsas verir [4, s.14]. Səfəvilər dövlətinin quruluşu və Azərbyacandakı mövcud sosial-iqtisadi vəziyyət üç inkişaf mərhələsindən keçdiyi xüsusi olaraq diqqəti cəlb edir.

- Birinci mərhələ-şah İsmayılın taxta çıxmasından I şah Abbasa qədər olan dövrü (1501-1588-ci illər);
- İkinci mərhələ I Şah Abbasın (1588-1629) hakimiyyəti illəri;
- Üçüncü mərhələ şah Səfinin taxta çıxmasından Səfəvi sülaləsinin devrilməsinə qədər olan bir dövrü (1629-1722-ci illər) əhatə edir.

Tarixi ədəbiyyatlarda birinci mərhələ dəyişikliklər və tənzimlənmə dövrü kimi xarakterizə edilir. Bu dövrdə dövlətdə əsas məqam və vəzifələr arasında səlahiyyət bölgüsü dəqiq olaraq aparılmamışdı. İkinci mərhələdə Səfəvilər dövlətində inzibati idarəetməsində xeyli dəyişikliklər aparıldı. Üçüncü mərhələ Səfəvilər dövlətinin tədricən tənəzzülü dövrü kimi xarakterizə edilir [4, s.22].



*©Zənfirə Qəzənfər qızı Quliyeva t.f.d., dos. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, İctimai elmlər kafedrası.*
*E-mail: hseva@list.ru*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

Səfəvi dövlətinin tənəzzülü tarixi ədəbiyyatlarda şah Sultan Hüseyinin şəxsi keyfiyyətləri ilə də əlaqələndirir, onun özündən əvvəlki şahlardan fəaliyyətsizliyi və bacaraıqsızlığı ilə seçildiyi, silahla əldə edilənlərin fəaliyyətsizlik, israfçılıq və bacarıqsızlıqla itirildiyi fikri xüsusi olaraq qeyd olunur. V.V.Minorski və L.Lokkart hesab edirdilər ki, Səfəvi dövlətinin süqutu I Şah İsmayılın yaradığı idarəetmə nüvəsinin tam yox olması, hakim siniflər arasında yeni və köhnə elementlər arasındakı qarşıdurma, bacarıqsız sülalə nümayəndələrin yetişdirilməsi və s. ilə əlaqədardır. Lakin belə bir fikirdə vardır ki, başlıca səbəb dövlətin və cəmiyyətin iqtisadi əsasını təşkil edən əsas istehsaçlının, kiçik kəndli təsərrüfatının müflisləşməsi və bərbad vəziyyətə düşməsi də Səfəvi dövlətinin süqutunun əsas səbəblərindən biridir[11, s. 13-14]. Eyni zamanda XVII əsrdə Böyük Coğrafi kəşflərdən sonra dünya ticarət yollarının istiqamətinin dəyişilməsi də öz təsirini göstərdi. Bütün bunlar Azərbaycanda ticarət və sənətkarlığın inkişafına ciddi mənfi təsir göstərdi [5, s.64-68].

**İdarəetmə sistemi**

Səfəvi dövlətinin ilkin idarəetmə sistemi Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin dövlətçilik ənənələri əsasında formalaşmışdı. Səfəvi dövlətinin təşəkkülü ərəfəsində və formalaşmasının ilk dövründə yüksək hərbi zümrə, yerli idarəçilik sistemi formalaşdı. Tarixi ədəbiyyatlarda Səfəvi sülaləsinin hakimiyyəti dini hakimiyyətlə dünyəvi hakimiyyətin birləşməsi ilə təşəkkül tapmış hakimiyyət forması kimi xarakterizə edilir [2, s.21]. Ümumiyyətlə, Səfəvi dövlətininin quruluşunu qeyri-məhdud monarxiya, mütləq monarxiya kimi xarakterizə edirlər. Mütləq hakimiyyət dövlət rəhbəri şaha məxusus idi, hakimiyyət irsən ötürülür, dini və dünyəvi hakimiyyətə şaha məxsus idi. I Şah İsmayıl dünyəvi başçı olmaqla yanaşı ruhani-mənəvi təşkilatlara da nəzarətçi və həm də mürşid-i kamil vəzifəsini özündə saxlayırdı.



Şah qeyri-məhdud hakimiyyətə malik olmaqla ölkənin dini idarələrinin başçısı hesab olunurdu. Azərbaycan Səfəvi dövləti mütləq monarxiya idi [3, s.156]. Səfəvi dövlətində şahdan sonra ikinci şəxs baş vəzir hesab olunurdu. I Şah İsmayılın dövründə baş vəzir və digər dövlət məmurlarına əlavə səlahiyyətlər kimi vəkillik də verilirdi. Vəkil şahın dünyəvi və dini işlər üzrə müavini, köməkçisi funksiyasını daşıyırdı. Baş vəzirin səlahiyyətinə mülki və maliyyə işlərinə rəhbərlik, xarici ölkələrlə diplomatik danışıqların aparılması və müqavilə bağlanılması, bütün dövlət vergilərinin yığılması, xəzinə gəlirləri baş vəzin nəzarətində idi. Xəzinə üçün alınan vəsaitlər baş vəzin bilvasitə icazəsi ilə həyata keçirilirdi. Eyni zamanda yüksək vəzifələrə məmurların təyinatı, tiyul və soyurqalların verilməsi baş vəzirin möhrünə əsasən verilirdi. Qeyd etmək lazımdır ki, Səfəvilər dövrünüdə xüsusi maliyyə strukturu fəaliyyət göstəridi. Baş vəzirin tabeçiliyində vəzarət divanı fəaliyyət göstərirdi və tərklibinə altı vəzir daxil idi.

Amillərin (vergi işinə nəzarət edən məmur) mühasibat hesabtları, bütün vilayətlərin divan hesabları, ölkədəki digər hesab-kitab işləri ilə bağlı bütün sənədlərin nüsxələri baş vəzirin sərəncamı ilə mustofilər (maliyyə məmuru) tərəfindən hesablanaraq mərkəzi maliyyə dəftərinə köçürülürdü. Baş vəzirin maliyyə məsələləri üzrə müavini mustoufi əl-məmalik adlandırılıdı və böyük əmrlər sırasına daxil edilmişdi. Bir sıra mühüm səlahiyyətlər ona həvalə edilmişdi:

- vergilərin toplanılmasına nəzarət, vergi siyahılarını, hərbi və mülki qulluqçuların maaşlarının təsdiq edilməsi;
- böyük bir imperiya ərazisində vəzifəli və titullu şəxslərin qeydiyyatı, hərbçilərin əmək haqları onun möhrü ilə təsdiq edilirdi.

Səfəvilər dövlətində yığma qoşunlara başçılıq edən şəxs əmir-ül-üməra, dini təsistlara başçılıq edən səlahiyyətli şəxs isə sədr adlanıdırdı. Yuxarda deyilənlərlə yanaşı səfəvi dövlətində mühüm inzibati-iqtisadi funksiyaları olan birn sıra vəzifələr diqqəti cəlb edir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Saray dəftərxanasının darğası- maliyyə məsələləri üzrə maddi məsul dövlət məmuru, nazirlə birlikdə maliyyə məmurlarının hesab kitablarına nəzarət fiunksiyasını yerinə yetirirdi. Vergilərin toplanılması, mədaxilə aid bütün sənədlər mustoufi-əl-məmalik tərəfindən möhürlənib təsdiq edilməli idi. Deyilənlərlə yanaşı saray təsərrüfatının rəhbəri naziri-buyutat, şəhər idarəçiliyinə rəhbərlik edən kələntər, dövlət aparatında eşikağası və s. kimi vəzifələr diqqəti cəlb edir. Bütün bunlar Səfəvi dövlətində ölkənin bütün sferalarını, o cümlədən maliyyə-iqtisadi sferasını, təsərrüfat həyatının bütün sahələrini əhatə edən güclü iyerarxik və bürokratik sistemin formalaşmasından xəbər verir. Səfəvilər döləti 4 valilik və 13 vilayətə (bəylərbəyliyə) bölünmüşdü. Bəylərbəyilər XVI əsrin 30-cu illərinə kimi sultan, daha sonra isə xan titulu daşıyırdılar.

Göründüyü kimi, dövlət şah başda olmaqla formalaşmış mərkəzi aparat vasitəsi ilə və mərkəzi hakimyyətə tabe olan əyalət və vilayət rəhbərləri tərəfindən idarə olunurdu [3. s.157-160]. Bəylərbəyiliklər mahallara bölünürdü. Mahallar şah tərəfindən təyin edilmiş mahal hakimləri tərəfindən idarə edilirdi. Ölkədə məhkəmə işi şəriət məhkəmələrində həyata keçirilirdi və şəriət məhkəmələrinə qazılar rəhbərlik ediridilər. XVI-XVII əsrlərdə səfəvi ordu birləşmələri iki mühüm hissədən ibarət idi.

- Dövlət strukturu üzvlərinin tabeçiliyindəki birləşmələr, yəni bəylərbəyi və digər vilyayət rəhbərlərinin tabeçiliyindəki birləşmələr;
- Birbaşa şahın tabeçiliyindəki qüvvələr (tüfəngçilər, qulamlar, topçu birlikləri).

Dövrün müasir silahları ilə silahlanmış əsas ordu birlikləri birbaşa şaha tabe idi. Bu isə o demək idi ki, həmin birliklərdən feodal intriqa və çəkişmələrindən istifadə edilməsi o qədərdə asan deyildi. Şah hakimiyyəti əyalət hakimlərindən özünün bütün cəhətlərinə görə güclü və üstün idi.

**İqtisadi siyasət**

XVI əsr Azərbaycan torpaqlarının möhkəm və vahid Səfəvi dövlətinin tərkibinə daxil olması ölkədə vahidi iqtisadi siyasətin həyata keçirilməsinə imkan yaratdı. Bütünlükdə ölkədə təsərrüfat həyata çiçəklənməyə başladı. Kənd əhalisi əsasən əkinçiliklə məşğul olurdu. Təkcə Təbriz mahalında 7 növ buğda becərilirdi. Səfəvi dövlətində taxılçılıqla yanaşı bağçılıq, bostançılıq, ipəkçilik sahələri mühüm təsərrüfat sahələri idi. Eyni zamanda XVI-XVII əsrlərdə əsas məşğuliyyət və sahələrdən biri yarımköçəri heyvandarlıq sahəsi idi. Sözügedən sahələrlə yanaşı Səfəvi dövlətində sənətkarlıq, səhərlər, ticarət-iqtisadi əlaqələrinin də inkişafı xüsusi olaraq diqqəti cəlb edir. Bütünlükdə Səfəvi dövləti ərazisində 40-dan çox sənət sahəsi inkişaf etmişdi. Araşdırılan dövr ərzində Azərbaycanda mövcud peşə və sənət sahələri beş qrup üzrə qruplaşdırılır: toxuculuq və sözügedən sahə ilə bağlı peşə və sənət sahələri; metal emalı və işləmələri üzrə sənətlər; ağacoyma və ağacişləmə üzrə sənətlər; digər müxtəlif sənətlər (güzgü, dulusçuluq və s. kimi sənətkarlıq məhsullarının hazırlanması); əhalinin sosial və təsərrüfat fəaliyyəti ilə bağlı tələbatlarının təmin ediləməsinə xidmət edən peşələr (qəssab, dəyirmançı, kənkan və s.). Şəhərlərdə sənətkarlar müxtəlif emalatxanlarda çalışırdılar. Həmin emalatxanalar sərbəst (azad), feodal emalatxanaları, şah karxanaları idi [1, s.130-132].

Səfəvi dövlətinin iqtisadi siyasəti xarakterizə edilərkən iki mərhələ xüsusi olaraq fərqləndirilir. Birinci mərhələ I şah İsmayıldən I şah Abbasa qədər dövrü əhatə edir. Bir daha qeyd etmək yerinə düşərdi ki, Səfəvi dövləti I Şah İsmayılın rəhbərliyi ilə Azərbaycan türk tayfaları tərəfindən yaradılmışdır və bu dövlətdə Azərbaycan hərbi feodalları mühüm vəzifələrdə və postlarda idilər. İran feodalları mülki və ruhani vəzifələrdə idilər [10, s. 14-15]. Başlıca fərq isə I Şah Abbasın dövründən başlayaraq dövlətin mərkəzi əyalətlərinin dövlət tərəfindən himayə olunması, bürokratik aparatın tam formalaşması, dövlətin mühüm postlarında nəsil və tayfa başçılarının yerini məmur və bürokratların tutması və belə bir reallıqlara uyğun siyasətin həyata keçirilməsi diqqəti cəlb edir. Eyni zamanda birinci



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

mərhələdə dövlətin dominant etnik element türklər idisə, ikinci mərhələdə fars dilli komponentlərin mövqeyi güclənir. Hesab edilir ki, I şah Abbasın dövründə Səfəvi dövlətinin ərazisi xeyli genişlənmiş, xarici siyasi qüdrəti xeyli artmışdı [9, s.227-246.]. Həyata keçirilən daxili siyasət mərkəzi hakimiyyətin gücləndirilməsi və ölkədə güclü mərkəzləşdirilmiş dövlətin bərqərar olmasına xidmət edirdi [6, s.429]. Səfəvilərin iqtisadi siyasətinin bir neçə istiqamətdə həyata keçirilməsi diqqəti cəlb edir. Birinci istiqamət dövlətin sosial və iqtisadi dayaqlarının möhkəmləndirilməsi üçün reallaşdırılan torpaq siyasətidir. İkinci istiqamət dövlətin iqtisadi gücünün möhkəmləndirilməsi üçün kənd-təsərrüfatının, sənətkarlıq və ticarətin inkişaf etirilməsinə nail olunması ilə əlaqədar həyata keçirilirdi. Üçüncü istiqamət dövlət xəzinəsinə vəsait daxil olmalarının artırılmasına yönəldilmiş maliyyə-vergi siyasətinin reallaşdırılması ilə bağlı idi [1, s.136-138].

Səfəvilər ilk növbədə dövlətin tərkibində və ölkədə rəqiblərinin aradan qaldırılması üçün onların iqtisadi gücünün zəiflədilməsi üçün irsi soyurqal torpaqlarının dövlət torpaq fonduna daxil edilməsinə başladılar. Digər vacib tədbir kimi dövlətə xidmət müqabilində verilən tiyul üzərində sahibkar mülkiyyəti hüququna imkan verilmirdi. XVI-XVII əsrlərdə divan, xassə, vəqf torpaqlarının genişlənməsinə dövlət xüsusi qayğı göstərirdi. Ölkədə güclü mərkəzi hakimiyyətinin bərqərar olması, feodal ara çəkişmələrinin səngiməsi, kənd-təsərrüfatının, sənətkarlığın dirçəlməsinə səbəb oldu. I şah Təhmasib (1524-1576) dövründə Azərbaycan kəndində vergi sistemi nizama salındı, ölkə iqtisadiyyatı özünün dirçəliş dövrünü yaşayırdı. I Təhmasib 1555/56-cı illərdə vergi və digər mükəlləfiyyətlərin düzgün və ədalətli təsbit olunması üçün 96 maddədən ibarət "Dəstur əl-əməl" qanunu verildiyini bəyan etdi. Lakin bütün bunlar ilk növbədə Səfəvi dövlətinin iqtisadi gücünün artırılması üçün həyata keçirilən tədbirlər idi. Ən gəlirli iqtisadi sahələr bilavasitə ciddi dövlət nəzarətində idi. I Şah Abbas dövründə xam ipək ticarəti üzərində dövlət inhisarı qoyulmuşdu. Bu isə o demək idiki, əyanlara və rəiyyətə məxsus ipəkçilik təsərrüfatlarında yetişdirilən xam ipəyi ancaq dövlət xəzinəsi satın ala bilərdi. Bu qanun öz qüvvəsini I şah Səfi (1629-1642) dövründə verilmiş xüsusi fərmanla itirdi. Barama ticarəti ilə hər kəs sərbəst məşğul ola bilərdi, müdaxilələr qadağan edilirdi, məhsulun azad bazara çıxarılmasına heç bir inzibati əngəl və müdaxilə yox idi. Nəticədə ölkədə ipəkçilik inkişaf etməyə başladı, bazarda xam ipək məhsul bolluğu yarandı. Belə bir dövlət aparatının saxlanılması isə öz növbəsində külli miqdarada vəsait tələb edirdi. Həmin vəsaitlərin başlıca mənbələrindən biri kimi vergilər xüsusi olaraq qeyd olunmalıdır. Burada bir tarixi paradoks diqqəti cəlb edir. Bir tərəfdən vergilərin azaaldılması cəhdləri, digər tərəfdən isə həyata keçirilən tədbirlərə, verilən fərmanlara baxmyaraq vürgi mükəlləfiyyətləri və ödəliklərinin ağırlığı reallığı qalmaqda idi.

Səfəvilər dövrünün araşdırılması ilə məşğul olan tədqiqatçılar vergilərlə bağlı 35 konsepsiyaya xüsusi diqqət yetirirlər. Həmin vergilərin bir qismi hələ Sasanilər və Ərəb xilafəti dövründə (xərac, uşr, cizyə), bir qismi səlcuqlar və elxanilər (ixracat, ulufə, ulaq, çerik), Ağqoyunlular (qonalğa, ulam, rüsum, pişkeş, şikar və ) dövründə alınan vergilər idi. Səfəvilərə qədər mövcud olan vergilərin bir qismi yeni adlarla tətbiq edilməyə başlanıldı. Həmin vergilər rus elmi ədəbiyyatlarında aşağıdakı kimi qruplaşdırılmışdır: torpaq və gəlir vergiləri, ordunun və bürokratik aparatın saxlanılması üçün alınan müxtəlif natural yığımlar, məmur və feodalların müxtəlif icbari ödənişləri, adam başına və hər evə düşən vergilər, dövlət və feodalların xeyrinə müxtəlif mükəlləfiyyətlər, o cümlədən hərbi mükəlləfiyyət [7, s.122, №4, 2014,]. Tarixi-iqtisadi ədəbiyyatlarda I Şah Abbasın əhalinin vergi yükünün qismən yüngülləşdirilməsi ilə əlaqədar bir sıra tədbirlərin həyata keçirilməsi öz əksini tapmışdır: 1598-1599-cu illərdə vergi siyasəti sahəsində mühüm tədbirlərdən biri həyata keçirildi. İran-İrakın mərkəzi əyalətlərində əhalinin vergi yükünün azaldılması tədbiri həyata keçirildi. Əhali 10 000 tümən vergidən azad edildi. "Çoban bəyi" vergisi ləğv edildi, bu vergidən xəzinəyə



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

hər il 20000 tümən vəsait daxil olurdu. İsfahan şəhəri bütün vergilərdən azad edildi. Hər il 20000 tümən vəsait xəzinəyə daxil olurdu. 1606-1607-ci illərdə Ordubad əhalisi vergidən azad edildi. Tədqiqatçılar xüsusi olaraq qeyd edirlər ki, I Şah Abbasın vergi siyasəti və onun bütünlükdə daxili siyasəti, iqtisadi siyasəti Səfəvi dövlətinin siyasi qüdrətinin artmasına, iqtisadi çiçəklənməsinə səbəb oldu .

Səfəvi dövlətində diqqəti cəlb edən sosial-iqtisadi proseslər qismində torpaqların ayrı-ayrı sahibkarların əlində cəmlənməsi göstərilə bilər. Belə bir proses isə iri mülklərin yaranmasına səbəb oldu. Həmin mülklərdə təsərrüfat bazar tələb və tələbatlarına əsasən aparılırdı. Eyni zamanda XVI-XVII əsrlərdə İran və Azərbaycanda şəhər həyatının, ticarətin (xüsusi ilə xarici ticarətin), sənətkarlığın canlanması isə hər şeydən öncə ticarət və sənətkarlıqla məşğul olan əhalinin tamqa vergisindən azad edilməsi ilə əlaqələndirirlər [8, s.131, №4, 2009 ]. Lakin bütün Səfəvi dövləti ərazisini, bütün sosial qrupların mənafeyini nəzərə alan ümumi, vergi yükünün yüngülləşdirilməsini nəzərdə tutan ümumi təşəbbüs olmadı.

**Nəticə**

Qüdrətli Səfəvi dövlətinin yaranması feodal pərakəndəliyi və feodal ara müharibələrinin aradan qaldırılması ilə nəticələndi. Azərbaycanın cənub və şimal torpaqlarının vahid, güclü mərkəzləşdirilmiş dövlətin tərkibində birləşməsi, bu dövlətin bir müddət, uzun illər ərzində əsas hərbi-siyası qüvvələrinin azərbaycanlıların olması bütünlükdə Azərbaycan millətinin formalaşması və inkişafı tarixinin mühüm və həlledici mərhələlərindən biri kimi dəyərləndirilə bilər. Səfəvi dövlətinin yaranması Azərbaycanın bütövlüyü, iqtisadi və mədəni yüksəlişə nail olması, Azərbaycan və ətraf ərazilərdə feodal cəmiyyətinin təkamülü prosesinin baş verməsi dövrü kimi xarakterizə edilir. Səfəvi dövləti çox millətli dövlət olsa da, əsas etnik element azərbaycanlılar idi.



**Ədəbiyyat**

1. Abdullayev M. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək), ali məktəblər üçün dərslik, Bakı Universiteti, Bakı 2014.
2. Z.H.Bayramlı, Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında Türk qızılbaş əyanların rolu, Bakı 2018.
3. N.,Süleymanov Azərbaycan Səfəvi dövləti, 1501-1736-cı illər, Bakı "İqtisad Universiteti" nəşriyyatı 2018.
4. Ахундова Н.Ф., Азербайджанские государства в XV-XVI вв. в «Кембриджской истории Ирана», Автореферат диссертации на соискание ученой степени доктора философии по истории, Баку 2013
5. Гейдаров М.Х. Упадок городской жизни Азербайджана и Ирана на рубеже XVII-XVIII вв. и его основные причины. Материалы по экономической истории Азербайджана. Баку, 1970, с.64-68
6. История стран Азии и Африки в средние века. М.: МГУ, 1968.
7. Мамедов Р.Ю., Налоговая политика Сефевидов в работах Русских авторов (конец XV:- начале XVII в). Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, 2014, №4, с. 121-126
8. Мамедов Р.Ю., Проблемы социально-экономической жизни Сефевидского Государства в Русской (Советской) Историографии (к XVI –I пол. XVII в.) ). Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, 2009, №4, с.131 (129-134).
9. Петрушевский И.П. К истории института союргала. Советское востоковедение. Т.VI. М.-Л., 1949.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

10. Сеидова Г., Азербайджан во взамиотнощениях Сефевидской империи и Русского государства в XVII (по русским источникам) веке, Баку-Nurlan-2007.
11. Ширалиева Г.Р Земледелия и аграрные отношения в Азербайджане (в первой половине XVIII века)», Автореферат диссертации на соискание ученой степени доктора философии по истории, Баку 2012.
12. Эфендиев О.Азербайджанское государство Сефевидов в XVI веке, Баку, «Элм», 1981

***Зенфира Газанфар кызы Гулиева***

***Экономическая политика государства Сефевидов: основные особенности и направления***

***Резюме***

*В статье рассматриваются основные особенности и направления экономической политики Сефевидского государства. Исследованы процесс формирование Сефевидского государства, его основные этапы развития, также была выявлена и оценена взаимосвязь между системой управления, проводимой экономической политикой и существующими экономическими реалиями.*

***Ключевые слова:*** *сефевид, кызылбаш, феодал, управленческий, экономическая управления*

***Zenfira Gazanfar Guliyeva***

***The economic policy of the Safavid state: main features and directions***

***Rezume***

*The article discusses the main features and directions of the economic policy of the Safavid state. İnvestigated the process of formation of the Safavid state, its main stages of development. Besides cinsidered the relationship between the management system, economic policy and existing economic realities .*

***Keywords:*** *sefevid, Kyzylbash, feudal lord, managerial, economic management*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 18.11.2019.***
***Çapa qəbul olunub: 21.11.2019.***



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az